# Aqrar islahatların yaradıcısı

Azərbaycan iqtisadiyyatının mühüm bölməsi olan kənd təsərrüfatının inkişafında ümummilli liderin əvəzsiz xidmətləri olmuşdur. Hələ Sovet İttifaqının mövcudluğu illərində Heydər Əliyevin təşəbbüsü və gərgin səyləri sayəsində SSRİ Nazirlər Sovetinin, qəbul etdiyi «Azərbaycan SSR-də kənd təsərrüfatının inkişaf etdirilməsi tədbirləri haqqında» və «Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək, habelə irriqasiya-meliorasiya obyektlərinin layihələşdirilməsi və tikilməsi tədbirləri haqqında» qərarları respublikada kənd təsərrüfatı məhsulları istehsalının inkişafında müstəsna rol oynamışdır.

Həmin dövrdə bütövlükdə kənd təsərrüfatının, o cümlədən onun ayrı-ayrı sahələrinin inkişafına, aqrar sahənin maddi-texniki bazasının əsaslı surətdə yaxşılaşdırılmasına və kənd təsərrüfatı istehsalının səmərəliliyinin yüksəldilməsininə də böyük diqqət yetirilirdi. 1970—1975-ci illərdə respublikanın kənd təsərrüfatına 1920—1960-cı illərdəkindən 425 milyon manatdan (o vaxtkı qiymətlərlə) çox əsaslı vəsait qoyulmuşdu. Kənd təsərrüfatı maşınları, nəqliyyat vasitələri və digər texnikanın alınmasına, su təsərrüfatı qurğularının tikintisinə əsaslı vəsait qoyuluşu daha sürətlə artmışdı.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkənin mühüm problemlərindən biri də iqtisadiyyatın yenidən qurulması idi. İstənilən cəmiyyətlərdə iqtisadiyyat cəmiyyətdə yaşayan insanların tələbatını ödəmək üçün təşkil edilir. Azərbaycanda iqtisadi geriləmənin qarşısı aparılan uğurlu siyasət nəticəsində 1995-ci ildən etibarən alındı və tədricən iqtisadi dönüş əldə olundu. Azərbaycanda müstəqilliyin ilk illərində iqtisadi böhran yaşamasının iki mühüm səbəbi vardı. Birincisi təbii amillərin doğurduğu şərait: Azərbaycanın sənaye müəssisələri Sovetlər dövründə digər respublikaların istehsal və qeyri-istehsal sahələri ilə sıx bağlı idi. İstehsal olunan məhsullar əsasən öz bazarını bu məkanda tapır, xammal da həmin məkandan əldə edilirdi. Sistemin dağılması Azərbaycanda sənaye sahələrini də iflic vəziyyətinə qoymuşdu. Digər səbəb isə süni amillərin doğurduğu şərait idi. Yəni müstəqilliyin ilk illərində iqtisadi islahatların düzgün həyata keçirilməməsi, iqtisadi özbaşınalığın mövcudluğu, sənaye müəssisələrinin dağıdılması, aqrar siyasətin düzgün aparılmaması Azərbaycanın təsərrüfat həyatına böyük zərbə vurmuşdu.

Aparılan prosesin vacib tərkib hissələrindən biri yeni torpaq siyasətinin həyata keçirilməsi, torpaq islahatlarının aparılması idi. Bu proses məhz ulu öndərin rəhbərliyi altında çox uğurla həyata keçirildi. Nəticədə 3,5 milyondan çox insan torpaq mülkiyyətçisinə çevrilmişdir.

1990-cı illərin ikinci yarısından sonra Azərbaycanın kənd təsərrüfatında başlayan əsaslı və sabit yüksəliş torpaqların xüsusi mülkiyyətə verilməsi ilə yarandı. İnsanların torpağa münasibəti köklü surətdə dəyişdi. Öz torpağının tamhüquqlu sahibinə çevrilmiş Azərbaycan kəndlisində torpağı səmərəli becərmək, ona lazımi qayğı göstərmək həvəsi yarandı. Bunun da sayəsinldə hələ 1998-ci ildə kənd təsərrüfatı məhsullarının 80 faizini özəl sektor verirdi. 1999-cu ilin sonunda isə bu göstərici 95 faizə çatdı. Hazırda isə ölkəmizdə istehsal olunan kənd təsərrüfatı və ərzaq məhsullarının hamısı özəl bölmənin payına düşür. Torpağın xüsusi mülkiyyətə verilməsi hesabına məhsulun artımı bazar iqtisadiyyatının əsas barometri olan idxal-ixrac əməliyyatlarına da təsir göstərmişdir. Əvvəlki illərlə müqayisədə idxal dəfələrlə azalmış, ixrac isə çoxalmışdır. 1990-cı illərin sonlarında ölkədə müşahidə edilən kənd təsərrüfatı və heyvandarlıq məhsulları istehsalının azalmasının dayanması və qısa müddət ərzində onun artımına nail olunması həyata keçirilən aqrar siyasətin düzgünlüyünü bir daha təsdiqlədi.

Tarixə «Heydər Əliyev aqrar islahatları» kimi daxil olmuş bu islahatların uğurlarını xarici ölkələrdə də etiraf edirlər. Rusiya, Ukrayna və Moldovanın kənd təsərrüfatı üzrə ekspertlərinin fikrincə Azərbaycanda aparılan aqrar islahatların MDB məkanında analoqu yoxdur.

2003-cü ildə xalqımızın dəstəyi ilə hakimiyyətə gələn, Heydər Əliyevin iqtisadi strategiyasını yeni şəraitdə həyata keçirən Prezident İlham Əliyev də regionların tərəqqisinə yönəldilmiş siyasətində aqrar sektorun inkişafına xüsusi diqqət yetirir.

Azərbaycanın hərtərəfli inkişafına xidmət edən və icrası bu gün də böyük uğurla davam etdirilən regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının uğurla icra edilməsi kənd təsərrüfatının da inkişafına böyük təkan verir və ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına kömək edir.

**Oqtay MƏMMƏDOV.**

# Doğma ölkəmizdə

## Gəncə Avtomobil zavodu Cənubi Qafqazda ən böyük avtomobil istehsalçısıdır

Əsası ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə qoyulan və ilk dəfə OKA, UAZ, CAN-QAN avtomobillərinin yığımı ilə fəaliyyətə başlayan Gəncə Avtomobil zavodu hazırda 35 çeşiddə müxtəlif modifikasiyalarda texnikalar istehsal edir. İndiyədək zavodda 8 modeldə traktor istehsal edilib. Onlardan 5737 ədədi dövlət sifarişi əsasında «Aqrolizinq» ASC-yə, 497 ədədi güzəştli qiymətlərlə fermerlərə və sahibkarlara satılıb. 20 modeldə 2600 ədəd MAZ, «KamAZ» və «Ural» avtomobilləri yığılıb.

Cənubi Qafqazda ən böyük avtomobil istehsalçısı olan zavoda bu gün nəinki ölkə daxilində, hətta xarici ölkələrdə də böyük maraq göstərilir. Zavod bu yaxınlarda daha bir yeniliyə imza atmağa hazırlaşır. Burada «Avto-5» standartlarına uyğun avtobuslar istehsalı üçün hazırlıq görülür. Bu avtobuslar isə xaricdən alınan avtobusların dəyərindən 25-30 faiz aşağı qiymətə proqnozlaşdırılır.

Zavod hazırda özünün ən sürətli inkişaf dövrünü yaşayır. Burada 750 nəfər işçi çalışır.

## İqtisadi sahədə çalışanların orta aylıq əməkhaqqı

Aprel ayının 1-nə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 500 min nəfər olub. Onlardan 890,6 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 609,4 nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

Muzdla işləyənlərin 22,6 faizi təhsil, 19 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 12,2 faizi sənaye, 8,9 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,3 faizi tikinti, qalanı isə digər sahələrdə məşğul olublar.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə yanvar-mart aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8 faiz artaraq 485,5 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi maliyyə və sığorta fəaliyyəti, tikinti, informasiya və rabitə, eləcə də peşə, elmi və texniki fəaliyyət sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

# Qəbələ rayonunda qanvermə aksiyası keçirilib



Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış sərəncamlara əsasən talassemiya ilə mübarizəyə dair 2015-2020-ci illər üçün Dövlət Proqramına uyğun olaraq Qəbələ rayonunda qanvermə aksiyası təşkil olunmuşdur.

Müxtəlif qan xəstəliklərindən əziyyət çəkən insanlara kömək məqsədilə Qəbələ Rayon Diaqnostika Mərkəzində keçirilən humanitar tədbirdə rayonun idarə və təşkilatlarının kollektivləri, hüquq mühafizə orqanlarının əməkdaşları, təhsil, səhiyyə və mədəniyyət işçiləri və gənclər iştirak etmişlər.

Aksiya çərçivəsində Mərkəzi Qan Bankının əməkdaşları ilk öncə vətəndaşları müayinə ediblər. Könüllü olaraq qan vermək üçün gün ərzində müraciət edən 200 nəfərdən yuxarı vətəndaşlardan qan götürülüb. Tədarük olunan qan və qandan hazırlanan preparatlardan hemofiliyalı və talassemiyalı, həmçinin qana ehtiyacı olan digər xəstələrin müalicəsində istifadə ediləcək.

**Foto S. Umuyevindir.**

# Fənn olimpiadaları başa çatdı

## 2 qızıl, 1 gümüş və 1 bürünc medal qazanıldı



İstedadlı şagirdləri aşkara çıxarmaq onların potensialını inkişaf etdirmək və həmin şagirdlərlə məqsədyönlü iş aparmaq üçün hər tədris ilində fənn olimpiadaları keçirilir. Obyektiv, ədalətli və sağlam rəqabət mühitində keçirilən belə yarışlar şagirdlərin müvafiq fənlərə olan marağının daha da artmasına səbəb olur.

Rayonun ümumtəhsil məktəblərində hər il olduğu kimi bu il də fənn olimpiadalarına xüsusi hazırlıq işləri aparımışdı. Hər bir məktəbdə tədris ilinin əvvəlində "Olimpiadaya hazırlıq" komissiyası yaradılmış, fənn müəllimləri bilik və qabiliyyətinə görə seçilmiş uşaqlarla əlavə məşğələlər aparmışlar. Bunun nəticəsində fənn olimpiadalarının yanvar ayında keçirilən rayon mərhələsində 403 nəfər IX-XI sinif şagirdi iştirak etmişdir. Test yoxlamalarının nəticələrinə görə onlardan 87 nəfər Şəki şəhərində keçirilən zona mərhələsinə vəsiqə qazandı. Aprel ayında Bakı şəhərində keçirilən respublika mərhələsində 17 nəfər iştirak etdi. Nəticələr məktəblilərimiz üçün uğurlu oldu:

2 qızılq, 1 gümüş və 1 bürünc medal.

May ayının 17-də Respublika Fənn Olimpiadalarının qaliblərinin mükafatlandırılması oldu. Mükafatlandırma mərasimində təhsil naziri Mikayıl Cabbarov, millət vəkilləri, bir sıra dövlət orqanlarının, qeyri - hökumət təşkilatlarının və təhsil müəssisələrinin rəhbərləri, tanınmış ziyalılar, münsiflər heyətinin sədrləri və üzvləri, olimpiada qalibləri, təhsil ictimayyətinin nümayəndələri iştirak edirdilər.

(Ardı 7-ci səhifədə).